# XV Beynəlxalq Qəbələ Festivalı - ”GabalaFest“

(Əvvəli 4-cü səhifədə).

və akademik mühitdə keçən tədbirin sonunda diplomat-yazıçı müəllifi olduğu kitabları oxucular üçün imzalayıb və xatirə şəkilləri çəkdirib.



**"GabalaFest" çərçivəsində Xalq yazıçısı Çingiz Abdullayevlə möhtəşəm görüş və imza saatı keçirilib**

"GabalaFest" çərçivəsində növbəti unudulmaz ədəbi görüş müasir Azərbaycan ədəbiyyatının canlı klassiki, Xalq yazıçısı Çingiz Abdullayevin iştirakı ilə keçirilib. Tədbirdə dünyaca məşhur yazıçının yaradıcılıq yolu, detektiv janrının incəlikləri, mütaliənin cəmiyyətdəki rolu və mənəvi dəyərlər ətrafında geniş və maraqlı söhbətlər aparılıb. Çingiz Abdullayev səmimi mühitdə keçən görüşdə zəngin həyat təcrübəsini bölüşərək oxucuların və festival qonaqlarının çoxsaylı suallarını böyük məmnuniyyətlə cavablandırıb. Böyük coşğu ilə yaddaqalan tədbirin sonunda xalq yazıçısı sevilən əsərlərini oxucular üçün imzalayıb və iştirakçılarla xatirə şəkilləri çəkdirib.



Daha bir maraq görən tədbirlərdən biri də tanınmış detektiv yazıçısı **Elxan Elatlı** ilə oxucuların görüşü və imza günü olmuşdur. Yazıçı oxucularına detektiv janrındakı son romanları, süjet xətlərinin qurulması prosesi və obrazların yaradılması incəlikləri haqqında məlumatlar təqdim edib.

Tədbirdə oxucular müəllifə əsərlərindəki sirli məqamlar, gələcək layihələri və Azərbaycan detektiv ədəbiyyatının inkişafı ilə bağlı suallar ünvanlayıblar. Görüşün sonunda Elxan Elatlı oxucuların gətirdiyi və sərgi stendindən əldə etdiyi kitabları imzalayıb, onlarla xatirə şəkilləri çəkdirib.

“GabalaFest” çərçivəsində uşaq yazıçısı **Yuliya Kərimova** ilə təşkil olunan görüş xüsusilə azyaşlı oxucular və onların valideynləri üçün maraqlı proqramla yadda qalıb. Tədbirin əsas hissəsi müəllifin məhz bu festival üçün xüsusi əhəmiyyət daşıyan yeni “Cumbulu Qəbələdə” uşaq kitabının təqdimatına həsr olunub.

Yazıçı balaca oxuculara kitabın baş qəhrəmanı Cumbulunun macəraları, Naftalan və Qəbələ səyahətləri, eləcə də .uşaqlara təbiət sevgisi və vətənpərvərlik aşılayan mövzular haqqında danışıb. Təqdimatdan sonra azyaşlı oxucular üçün interaktiv sual-cavab, mütaliə saatı və kitabların imzalanması təşkil edilib.



**XV Qəbələ Beynəlxalq Musiqi Festivalı təntənəli şəkildə başa çatıb**

Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Bakı Musiqi Akademiyası və “Gilan”ın dəstəyi ilə keçirilən XV Qəbələ Beynəlxalq Musiqi Festivalı yekunlaşıb. İllərdir dünya musiqisinin müxtəlif simalarını bir araya gətirən festival bu il də Azərbaycanla yanaşı Almaniya, Avstriya, Qazaxıstan, Niderland, Özbəkistan, Moldova, Rusiya və Vyetnamdan olan tanınmış sənətçiləri, rəqs kollektivlərini Qəbələdə toplayaraq mədəniyyətlərarası dialoqun mühüm ünvanına çevrilib. Festivalın yekun konsertində Əməkdar artist Fuad İbrahimovun rəhbərlik etdiyi Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin müşayiəti ilə xalq artistləri Azər Zeynalov, Samir Cəfərov, Əməkdar artist Elnarə Məmmədova və musiqiçilər Lalə Mürşüdlü (saprano), Zərifə Alxasova (violin), Nəcəf Vəliyev (trumpet) çıxış ediblər.



Festival avqustun 3-də möhtəşəm qala-konsertlə yekunlaşıb. Əvvəlki illərdən fərqli olaraq, bu ilki festival çərçivəsində klassik musiqi ilə yanaşı pop və estrada janrına da geniş yer verilib. Beləliklə, XV Qəbələ Musiqi Festivalı klassik musiqi ilə müasir pop şounu eyni səhnədə bir araya gətirərək festival tarixində bir ilkə imza atdı.

Cahangir Cahangirovun "Qələbə uvertürası" ilə başlayan musiqi gecəsində milli bəstəkarlarımızın ölməz əsərləri ilə yanaşı dahi dünya bəstəkarlarının opera nümunələri səsləndirilib. 2009-cu ildən keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı bu il də musiqisevərlərə unudulmaz anlar bəxş edərək xalqları birləşdirən mədəniyyət körpüsü kimi öz işini uğurla başa vurub.





Bağlanış gecəsinin əsas ulduzu xalq artisti, pop müğənni Aygün Kazımova olub. Aygün Kazımova bu festival üçün eksklüziv hazırladığı şou proqramı və canlı ifası ilə səhnə alıb, sevilən hitləri və festivala özəl hazırlanmış xüsusi nömrələri təqdim edib. Bağlanış gecəsində Aygün Kazımova ilə yanaşı məşhur britaniyalı müğənni Fredrik Ferrier də çıxış edib.

**İlahə EYVAZLI, jurnalist.**